Ədəbiyyat qəzeti

28 noyabr 2020-ci il 31



# Asif CƏFƏRLİ

Amansız ölüm Azərbaycan Yazıçılar Birliyi Beyləqan bölməsinin sədri, yazıçı-publisist Asif Cəfərlini aramızdan apardı.

Asif Musa oğlu Cəfərov 1959-cu ildə Beyləqan rayonunda anadan olmuş, buradakı 1 saylı orta məktəbdə təhsil almışdır. H.B.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsini bitirdikdən sonra doğma rayonunda ixtisası üzrə dərs demiş, Gəncə Məişət Xidməti kollecinin Beyləqan şöbəsində işləmişdir.

Asif Cəfərli ədəbi mühitdə öz dəsti-xətti olan yaradıcı insan kimi 40-dan çox bədii nəsr əsərləri, publisist yazıları, dram əsərləri, Beyləqan tarixi araşdırması və şeir kitablarının müəllifidir. Onun əsərləri Mahnı Teatrında və bir çox bölgə teatrlarında, cəbhə bölgələrində səhnəyə qoyulmuşdur.

Asif Cəfərlinin Azərbaycan Yazıçılar Birliyinin Beyləqan Bölməsinin ədəbi mühitinin formalaşmasında böyük əməyi olmuşdur. O, Prezident təqaüdçüsü, "Rəsul Rza" mükafatı laureatı, Azərbaycan MN-nin "Vətən naminə", "Fədai" medalları ilə təltif edilmiş, "Qızıl Qələm " mükafatı laureatı adına layiq görülmüş, bir ziyalı pedaqoq kimi "İlin ən yaxşı müəllimi" Respublika mükafatı laureatı olmuş və bir çox fəxri fərmanlarla təltif olunmuşdur.

Səmimi insan, tanınmış yazıçı-publisist Asif Cəfərlinin xatirəsi onu tanıyanların qəlbində yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**
**AYB-nin Beyləqan bölməsi**